# Müstəqil həyatın astanasında

## Ümumtəhsil məktəblərində «Son zəng» tədbirləri xüsusi təntənə ilə keçirilmişdir

*İnsan həyatında elə günlər olur ki, ömür boyu unudulmur. Bu yaddaqalan, hər an xatırlana biləcək günlərdən biri də "Son zəng" günüdür. Uşaqlığımızın ən çılğın, ən qayğısız vaxtları məktəb illərində olur. Hər dəfə məktəbdən söz düşəndə, məktəbi görəndə ürəyimiz sızıldayır, qəlbimizin dərinliklərindən "kaş o günlərə dönə biləydim" arzusu keçir.*

*Hər il iyunun 14-də ölkəmizdə "Son zəng" günü qeyd olunur. Məktəblərdə bir canlanma, şagirdlərdə sevinc dolu bir nisgil hiss olunur. Onbirincilər bu günə xüsusi olaraq hazırlaşırlar. Şeir axtarıb tapan kim, mahnı yazdıran kim, ssenari quran kim…*

*Bu günün məzunlarını on bir il əvvəl kiçicik əllərindən tutub məktəbə gətirən valideynlərə, onların hər şıltaqlığına, hər dəcəlliyinə qayğıkeş bir ata-ana kimi dözən, müstəqil həyata atılmağa hazırlaşan yeniyetmələrə təkcə bilik verməklə kifayətlənməyib, həm də həyata hazırlayan, düzgün yol göstərən müəllimlərə baxanda adamın gözləri sevinc yaşları, ürəyi qürur hissi ilə dolur.*

### "Son zəng"

*Dayanın, çalmayın sonuncu zəngi!*
*Yoxsa ürəyimə toxunacaqdır.*
*Bir zaman "gəl" deyən o doğma səsdə*
*Bir hicran nəğməsi oxunacaqdır.*
*Zəngçalan, nə olar, əlini saxla,*
*Bu şagird ömrünü uzat bir an da.*
*Bu məktəb, bu bina, bax... bu divarlar*
*Mənim olmayacaq zəng vurulanda.*
*Hələ bir-birindən ayrı düşəcək*
*Neçə könül dostum, neçə sirdaşım.*
*O sarı köynəkli gülərüz qız da*
*Daha olmayacaq sinif yoldaşım.*
*Qoy bircə dəfə də "mənimdir", - deyə*
*Sinif otağını süzüm doyunca.*
*Tələsmə, zəngçalan... bununçün sənə*
*Minnətdar olaram ömrüm boyunca.*
*Çağırsın lövhəyə məni müəllim ,*
*Bir misal versin ki, asan olmasın.*
*Üç saat çalışıb, həll edim onu,*
*Təki, gün uzansın, zəng vurulmasın!..*
*Ürəyim titrəyir yad elədikcə*
*Məktəbə gəldiyim o ilk çağımı.*
*De burda nə cürə qoyub gedim, mən*
*Kürəyi çantalı uşaqlığımı?*
*Durub cərgə-cərgə müəllimlərim,*
*Baxırlar üzümə sözü var kimi.*
*Bu doğma, mehriban şən baxışlara*
*"Əlvida!.." deməyə dilim gəlmərmi?!*
*Dayanın, çalmayın sonuncu zəngi,*
*Yoxsa ürəyimə toxunacaqdır.*
*Bir zaman "gəl" deyən o doğma səsdə*
*Bir hicran nəğməsi oxunacaqdır...*

***Mir Sabir.***



**Şəhər 4 nömrəli məktəbdə**

Qəbələ rayonunda həmişəki kimi bu il də məktəb rəhbərləri, valideynlər və şagirdlər tərəfindən "Son zəng" tədbirlərinə böyük hazırlıq işləri aparılmış, bu əlamətdar günün yüksək səviyyədə, bütün məzunların və iştirakçıların uzun illər yadında qalacaq emosional hadisəyə çevrilməsi üçün əllərindən gələni etmişlər.

Son zəng tədbirlərində bildirilmişdir ki, ötən il rayonun abituriyentləri ali məktəblərə qəbulun səviyyəsinə görə respublikada ön sıralardan birini tutmuşlar. Bu nailiyyətin daha da artırılması üçün məzunlardan yüksək əzmkarlıq tələb olunur. Bayram tədbirlərində birinci və on birinci sinif şagirdləri bir-birilərinə gül dəstələri və hədiyyələr təqdim etmişlər. Xatırladaq ki, ötən il rayonun orta məktəblərini bitirən 1191 məzundan 429 nəfəri ali məktəblərə qəbul olunmuş, onlardan 46 nəfəri 600-dən yuxarı bal toplamışdır.

2018-2019-cu tədris ilində isə 53 tam orta, 12 ümumi orta, 3 ibtidai məktəb fəaliyyət göstərib. 2568 nəfər pedaqoji işçinin çalışdığı ümumtəhsil məktəblərində təhsil alan 17298 nəfər şagirdən 1151 nəfəri bu il məzun adını qazanıb.

İyunun 14-də rayonun bütün ümumtəhsil məktəblərində keçirilən "Son zəng" tədbirləri şəhər 1, 2, 3, 4 və 5 nömrəli, Vəndam qəsəbə 1 nömrəli, Zarağan 2 nömrəli, Həmzəli, Soltannuxa, Bunud, Hacıalılı, Çarxana, Yemişanlı, Mıxlıqovaq, Xırxatala, Dizaxlı, Daşca, Tüntül və Nohurqışlaq kənd tam orta məktəblərində daha maraqlı və yaddaqalan olub.

Tədbirlərdə çıxış edənlər dövlətimizin başçısı tərəfindən xalqımızın gələcəyi olan uşaqlara göstərilən diqqət və qayğıdan, onların sağlam və bilikli böyüməsi istiqamətində həyata keçirilən işlərdən danışıb, rayonda aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərindən söz açıblar.

Buraxılış tədbirində iştirak edən rayon icra hakimiyyətinin nümayəndələri, məktəb direktorları, müəllimlər, valideynlər və digər qonaqlar məzunlara müstəqil həyatlarında uğurlar arzulayıb, ən xoş arzularını bildiriblər. Məktəbi əla qiymətlərlə bitirənlərə, həmçinin müxtəlif miqyaslı fənn olimpiadalarının qalibi olanlara təhsil müəssisələrinin Fəxri fərmanları və hədiyyələr təqdim olunub.

Bir qayda olaraq bütün tədbirlər 1-ci və 11-ci sinif şagirdlərinin hazırladıqları ədəbi-bədii kompozisiyalarla davam edib, sonda məktəblərdə "Son zəng"lər çalınıb.

Qəbələ rayonunun digər ümumtəhsil müəssisələrində də "Son zəng" tədbirləri yüksək səviyyədə təşkil olunub.



**Şəhər 5 nömrəli məktəbdə**



**Zarağan kənd 2 nömrəli məktəbdə**



**Şəhər 1 nömrəli məktəbdə**



**Şəhər 3 nömrəli məktəbdə**



**Şəhər 4 nömrəli məktəbdə**





**Həmzəli kənd məktəbində**

### Redaksiyadan:

*Ölkəmizin ümumtəhsil məktəblərində növbəti "Son zəng" çalındı. Doğma Vətənimizdə on minlərlə gənc tam orta təhsillə müstəqil həyata qədəm basdı.*

*Onların sıralarından neçə-neçə həkim, müəllim, mühəndis, digər peşə, sənət sahibləri yetişəcək. Hansı peşəni seçmələrindən asılı olmayaraq onların hər birinə doğma Vətənimizə şərəflə xidmət etməyi, onun tərəqqisi və gözəlləşməsi naminə əzmlə çalışmağı arzulayırıq. Diləyimiz odur ki, hər bir gəncin arzusu, ümidi qol-qanad açsın, həyata keçsin.*

***"Qəbələ"***